# XƏYALLARIN BİTDİYİ YER

*hekayə*



Vəfa Mürsəlqızı



Közərməkdən canı üzülmüş siqareti son dəfə ”öpüb” külqabıya basdı. Külqabı, deyəsən, sulu idi çünki siqaret ”cız” elədi. Ürəyi sancdı qəfil və əlini sinəsinə atdı. Beynində arvadının bayaqkı monoloqu dolaşırdı. Onlarda heç zaman dialoq alınmırdı. Həmişə monoloq olurdu və o da cansıxıcı tamaşaya baxmağa məcbur olan seyrçi kimi dinləmək məcburiyyətində qalırdı. İllər idi hər şey belə davam edirdi ancaq son günlər hiss edirdi ki, çox yorulub. Adətən, arvadı gəlib stulda otururdu, bir iki dəqiqə əllərini hövkələyəndən sonra məşhur monoloquna keçid alırdı. Artıq demək olar ki, əzbərləmişdi onun replikalarını. ”Sən də kişisən? Ay Allah, hər şeydən kişi olurmuş ey (bu yerdə arvadı ironik tərzdə gülümsəyirdi) Yox, səndə nə günah var ey? Kül mənim başıma ki, o qədər istəyəni qoyub sənə ərə getdim. O vaxt bəyənmədiyim oğlanlar arvadlarını ”cip”də gəzdirir, villalarda saxlayır. Sən də yapışmısan bu iylənmiş, padvala oxşayan evə. Yazıb-pozduğun da bir şey ola barı, olsaydı sənə də bir gün ağlayardılar”. Bax beləcə davam edirdi hər gün. Bu arvadının dediklərinin bir hissəsi idi əslində, çünki ikinci hissə arvadının onun mərhum valideynlərinin dalınca xüsusi ehtiras və şövqlə etdiyi qarğışdan ibarət olurdu. Axırda da pərdə göz yaşları ilə bağlanırdı. Amma daha bu barədə düşünmək istəmədi və geyinib evdən çıxdı. Hər dəfə arvadı ilə dalaşanda Gülər yadına düşürdü. Gülər onun ilk məhəbbəti deyildi, amma əmin idi ki, ilk ciddi sevgi hisslərini Gülərə bəsləmişdi. Gülər, Sevda və o bir vaxtlar yaxşı dost idilər. Eyni institutda, eyni qrupda oxuyurdular. Güləri sevdiyini heyf ki, gec anlamışdı, anlayanda isə Gülər artıq nişanlı idi. Amma öz aralarında ikisi də hətta Sevda da, bu sevginin varlığından xəbərdar idi. Lakin bunu açıb-ağartmadılar və Gülər ərə getdi. İllər onun təxəyyülündə Güləri elə ilahiləşdirmişdi ki, o hətta, Gülərlə nə vaxtsa münasibət qura biləcəyini, ona arvadı kimi davranacağını xəyal belə edə bilmirdi. Gülər şox gözəl qız idi. Bəstə boyu, qara uzun qaşları, badamı gözləri, gözəl şabalıdı saçları vardı. Dodaqları qalın idi, amma mirvari kimi zərif və biçimli dişləri dodaqlarını daha da cazibəli, qəşəng göstərirdi. Gülərin obrazını illər elə cilalamışdı ki, kiçicik nöqsanları, qüsurları belə görünməz olmuşdu. On il keçirdi evləndiyi gündən, amma Gülərin xəyalını düşüncələrindən silə bilmirdi. Bəlkə də, arvadı daha nəvazişkar, daha diqqətcil olsaydı, Güləri onun beynindən sıxışdırıb çıxardardı. Və ya bəlkə də, o arvadına qarşı soyuq və etinasız olmuşdu. Bütün bunları düşünə-düşünə avtobusa oturdu, iki dayanacaq getdi. Düşmək üçün qapıya yanaşanda şən, nazik qadın səsi onun adını hündürdən tələffüz etdi.

- Mərdan, gözlərimə inanmıram...
- Sevda, sənsən?
- Yox, kölgəmdir.

Bu ”Kölgə” söhbəti onların gənclikdən qalan zarafatları idi və Mərdanın birdən-birə burnunun ucu göynədi o günlər üçün. Mərdanın keçmişinə söykənən həsrət o qədər dərin, yandırıcı idi ki, az qaldı küçənin ortasında oturub ağlasın. Ordan-burdan danışdılar, amma bircə sualı ürəyində saxladı - verə bilmədi. Güləri soruşmaq istəyirdi Sevdadan. Bəlkə Sevda da Mərdanın ürəyini deşən o sualın varlığından xəbərdar idi. Mərdan asta-asta mətləbə gəlməyə çalışırdı. Uşaqlar (yəni keçmiş qrup yoldaşları) haqda soruşa-soruşa gəlib Gülərə çatdı.

Arvadı ilə xalası tanış eləmişdi onu. Arvadı musiqi müəlliməsi idi. Guya musiqi müəlliməsi idi. Çünki arvadının bütün cismində incəlikdən, duyumluluqdan, həzinlikdən, melodiklikdən əsər-əlamət yox idi. Mərdan əsla başa düşə bilmirdi ki, bu cür deyingən, ruhsuz bir qadının barmaqları necə musiqi alətini dilləndirə bilər .Vüsalə məktəbdə nəğmə müəlliməsi işləyirdi. Hər gün yuxudan zarıya-zarıya durürdu, elə bil incəsənətlə məşğul olmağa yox, daş daşımağa gedirdi. Ümumiyyətlə ,Vüsalənin həyatda razı qaldığı bir şey, deyinmədiyi bir məqam yox idi. Evliliklərinin ilk aylarında gözünü hamıdan, hər şeydən çəkib ancaq ailəsinə bağlanmağı düşünürdü. Anacaq arvadının acgöz, vecsiz xasiyyəti onu tezliklə çox peşman etmiş, həyatından küsdürmüşdü. İlk uşaqları olanda da eyni ümidlə gözləmişdi ki, bəlkə, bu körpə məxluqun varlığı onu evinə bağlayar və xoşbəxt edər. Amma sonra məyusluqla başa düşmüşdü ki, uşaq xoşbəxtliyi möhkəmləndirmək üçündür. Olmayan bir səadəti isə uşaq insana bəxş edə bilməz. İllər idi ki, o yalnız Gülərin xəyalı ilə yaşayırdı. Ürəyindəki narazılıq qalın bir təəssüf pərdəsinə bürünmüşdü ki, bu da onu asta-asta yeyib bitirirdi”. ”Kaş ki”lər onu odsuz-alovsuz yandırıb yaxırdı. Həyatında etdiyi ən önəmli seçimdə səhv etmişdi. Hətta anası dünyasını dəyişəndə belə arvadına qısılmaq, dərdini ona danışmaq əvəzinə, Gülərin xəyalına tapınmışdı. Onun uzunsov, badamı, güləş gözlərini gözü önünə gətirib dərdli-dərdli gülümsəmişdi. Və düşünmüşdü ki, bircə dəfə Güləri qucaqlaya biləydi. Elə belə dost kimi, hissiz, həyəcansız qucaqlayaydı, ona sığınaydı.

-Mərdan, Gülər salonda işləyir. Nə əcəb rastlaşmamısınız bu vaxta qədər.

- Hə? Hansı salonda? Yox, nəsə rastıma çıxmayıb. Bakı böyük şəhərdir Sevda, yəqin tamam başqa səmtdə qalır.

- Hə, bilirsənmi onun işlədiyi salon ”İnşaatçılar” metrosunun lap yaxınlığındadır. ”RECE” gözəllik salonu yazılıb üstünə. Mən arabir gedirəm oralara, dayan Gülərin nömrəsini də verim bəlkə lazımın olar.

Mərdanın əlləri əsdi, dili topuq çaldı. Bir istədi desin ki, ”Neynirəm Gülərin nömrəsin” amma tez fikrini dəyişdi.

- Yazmağa qələm, kağız var səndə?

Sevda mat-mat baxdı ona və şaqqanaq çəkdi. Şair bəs sənin telefonun yoxdur?

- Ev telefonu? Var, necə məyər?

- Mərdan sənə nolub? Deyirəm mobil telefonun yoxdur ki? Yaddaşına yaz da nömrəni.

Mərdan əlləri əsə-əsə Gülərin nömrəsini yazdı. Hərçənd ki, yaxşı bilirdi Gülərə zəng edə bilməyəcəyini. Sevda ilə sağollaşıb ayrıldılar. Dalınca getdiyi iş, hara gedəcəyi, nə edəcəyi Mərdanın yadından elə çıxmışdı ki, bir də gördü qapının zəngini basır. Arvadı hanan-hana açdı qapını. İçəri girən kimi soruşdu

- Noldu?
- Nə noldu?
- Dalınca getdiyin iş. - İndi xatırladı niyə səhər evdən çıxdığını.
- Bağlı idi. Sonra dəyəcəm.
- Səni əlinə stəkan verib dənizə göndərsən dəniz quruyar.

Cavab vermədi, çünki xoşbəxt idi bu an. Keçib divana uzandı, telefonunda Gülərin adını tapdı. Telefon nömrəsini açıb tamaşa etməyə başladı. Elə bəxtəvər idi ki, elə bil bu on il ərzində ilk dəfə idi ona yaşamaq üçün stimul verilmişdi. Nömrəni yığmağa çalışmadı da. Eləcə tamaşa edə-edə nə zaman yuxuya getdiyini özü də hiss etmədi.

Axşam süfrə arxasında oğlu peçenye yeyirdi. Bu peçenyeləri o almışdı dünən, əlifbanın hərfləri şəklində idi bu peçenyelər. Peçenyelərdən Gülərin adının hərflərini yığdı. Sonra da tələsik dağıtdı və peçenyeləri yedi.

İki həftə idi ki, hər gün ”İnşaatçılar” metrosuna qədər gedir, orda düşüb gözəllik salonuna uzaqdan tamaşa edib gəlirdi. O Gülərin nömrəsini açıb yüz kərə tamaşasına dururdu. Amma bircə dəfə də cəsarət edib zəng vura bilmirdi. Orda, o salonda onun səadəti vardı, illərlə xəyalında gəzdirdiyi qadın vardı. Amma əli çatmırdı, ünü yetmirdi. Tək bircə dəfə, ola bilsin ki, sonuncu dəfə Güləri görmək istəyirdi. Amma bu ”sonuncu dəfə” deyə özünə aşıladığı ”günah” duyğusunun arxasında Gülərlə təzədən yaxınlaşmaq kimi güclü bir ümid də dayanırdı. Bu ümid hərdən onun bədəninin bütün hüceyrələrinə hopurdu və bu zaman canına ləzzətli bir yorğunluq çökürdü. Bir səhər özünə söz verdi ki, bu gün mütləq özündə cəsarət tapıb salona girəcək və xəyallarındakı qadını görəcək. Evdən çıxıb bir xeyli veyilləndi. Hətta cəsarətə gəlmək üçün bir qədəh içdi də. Nəhayət, gəlib Gülərin işlədiyi salonun yanına yetişdi. Ürəyinin döyüntüsü qulaqlarında səslənirdi. Əlləri və ayaqları əsirdi, nə yaxşı ki, azca içmişdi, yoxsa, ümumiyyətlə, içəri girə bilməzdi. Bütün cəsarətini toplayıb qapıdan içəri keçdi. Xudmani salonun içərisi lak, ətir, saç rəngi, kimyəvi maddə qoxuyurdu. Qadınların fenin səsini batırmaq üçün yüksəltdikləri səsləri adamın başına düşürdü. Göz hərləsə də Gülərə bənzər birini görə bilmədi. İçəridəki saç ustalarından biri çox yaşlı digər ikisi isə çox gənc idi. Çəkinə-çəkinə soruşdu:

- Gülər xanım buradadır?

Nisbətən yaşlı qadın maraq və istehza ilə onu süzdü. Harasa salonun içərisindəki boşluğa başını uzadıb ”Gülya” deyə cır səslə bağırdı. İçəridən qadın səsi gəldi.

- Nədi, gəlirəm da.

. İki dəqiqədən sonra Gülər onun qarşısında idi. Və o bütün heyrəti ilə gözləri hədəqəsindən çıxa-çıxa xəyallarının qadınına baxırdı. Son dərəcədə arıq, dizlərindən iki qarış gödək paltar geymiş, süni sarıya boyanmış saçları, rəngli üzü, tatuaj qaşları olan bu qadın Gülər deyildi. Və ya Gülər olmalı deyildi. Çünki çəhrayı dırnaqlı iki barmağının arasında siqaret tutmuş bu qadının onun xəyalını öldürməyə haqqı yox idi. Bircə gözlərindən tanıdı Güləri. Badamı, güləş gözlərindən. Deyirlər adamların gözləri dəyişmir, amma yox belə deyil. Əslində, adamların gözləri həyatı boyu onların başqa bədən üzvlərindən daha çox dəyişikliyə uğrayır. Bir qadının gözləri onun gördükləri, yaşadıqları ilə dolduqca tamam dəyişir. Gülər handan-hana onu tanıdı.

- Aaaa, Mərdan döyülsən sən? Adə, sən hardan azıb buralara gəlib çıxmısan? Gör ha, neçə il keçib. Hardan bildin burdaişləyirəm?

Mat-mat baxırdı. Amma sonra başa düşdü ki, hər nə qədər pərt və çaşqın olsa belə bunu gizlətməlidir.

- Sevda dedi.
- Hə, Sevda, gəlir arada buralara. Nə əcəb səndən? Mərdan sən canın, yenə gic-gic şeirlər yazırsan?

Mərdan elə bil sinəsindən oxlandı. Vaxt vardı o qız, bəli o qız hələ bu qadına çevrilməmişdən, saatlarla Mərdanın şeirlərini dinləyərdi. Badamı gözləri süzüldükcə, yumru dodaqları yana dartılar və gülümsədikcə Mərdan daha da şövqlə şeir oxuyardı. Əlbəttə ki, indi qarşısında dayanan bu əcaib məxluqun o badamı gözlü qıza heç bir dəxli yox idi. Mərdan iki-üç dəqiqə də ləngidi və içindən qovurula-qovurula salondan çıxdı. Başı, ayaqlarını idarə edə bilmirdi sanki, ləngər vururdu. Qapıdan çıxanda Gülərin replikası bıçaq kimi kürəyinə saplandı. Görünür onun eşidə biləcəyini düşünmədən içəridəkilərə deyirdi:

- Az, bu külbaş o vaxtı məni sevib ey.

Evə necə çatdığını bilmədi. Qapının zəngini basdı. Vüsalə həmişəki kimi xeyli ləng açdı qapını və təpədən dırnağa ərini süzərək dedi:

- A, Mərdan, elə bil hüzrdən gəlirsən. Nə xəbərdir?

Mərdan çox təəccübləndi ki, onun biganə arvadı hardan bildi ki, o elə bu dəqiqə hüzrdən gəlir. Sadəcə arvadı anlamamışdı ki, insanın illərlə içində yaşatdığını, illər sonra öldürüb içində basdırmaq və bu ölünü son nəfəsə qədər elə içində də daşımaq, əzizini torpağa tapşırmaqdan qat-qat ağırdır!